# QARABAĞIN LANDŞAFT MEMARLIĞININ YENİDƏN QURULMASINDA BƏZİ İYNƏYARPAQLI BİTKİ NÖVLƏRİNİN İSTİFADƏ PERSPEKTİVLİYİ

**Leyla Vəliyeva**

*Mərkəzi Nəbatat Bağı, ya.leyla25@yandex.com*

İynəyarpaqlı bitki növlərinin yaşıllaşdırmada istifadəsi zamanı onların düzgün yerləşdirilməsi, torpaq-iqlim şəraitinə davamlı növlərin seçilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu bitkilər həmişəyaşıl, gözəl görünüşlü, dekorativ olmaqla yanaşı, həm də əlverişsiz şəraitə daha tez uyğunlaşırlar. Həmin səbəbdən iynəyarpaqlıların yaşıllaşdırmada tətbiqi məqsədəuyğundur. Tədqiq olunan növlərin əksəriyyəti müxtəlif torpaq-iqlim şəraitinə davamlı olub, yaşıllaşdırma və meşəsalma işlərində mühüm əhəmiyyət kəsb edir.

Abşeron şəraitində öyrənilən iynəyarpaqlı bitki növlərinin perspektivliyinin qiymətləndirilməsi zamanı E.O.İsgəndərin hazırladığı şkaladan istifadə edilmişdir.

Tədqiqatlar göstərmişdir ki, mədəni şəraitdə perspektivliyi araşdırılan bitkilər müxtəlif qruplara daxil edilmişdir. I qrup perspektivliyə malik olan bitkilər *Pinus eldarica, Pinus halepensis Cupressus sempervirens* həm təbii, həm də mədəni şəraitdə quraqlığa ən davamlı bitkilərdir. Perspektivlik şkalasında II qrupa daxil olan bitki növləri *Cedrus libani, Juniperus foetidissima* mədəni şəraitdə çoxaldılması və digər həyat göstəriciləri baxımından daha perspektivli (I) qrup nümayəndələrindən bir qədər az bal toplamışlar. Öyrənilən bitkilər içərisində *Taxus baccata* quraqlığa davamlılığına, qış fəslinə dözümlülüyünə, zoğ verməsinə, kulturada geniş istifadə göstəricilərinə görə III, yəni az perspektivlik qrupuna daxildir. *Cryptomeria japonica, Sequoia sempervirens, Picea orientalis* Abşeron şəraitində zoğun odunlaşması, vegetativ və generativ inkişafın zəif getməsi səbəbindən IV qrupa, yəni zəif perspektivlik qrupuna daxil edilmişlər. *Araucaria araucana* perspektivlik qrupunda V qrupda yerləşdirilmiş, Abşeron şəraitində həyat göstəricilərinin demək olar ki, bütün parametrlərinə görə zəif nəticə göstərmişdir. Aparılan təhlillər nəticəsində müəyyən edilmişdir ki, bu qrupa daxil olan bitkilərin təbii arealları ekoloji baxımdan Abşeron şəraitindən kəskin fərqlənir və həmin bitkilər öz təbii ərazilərinin şəraitinə müvafiq olaraq uyğunlaşma əlamətləri qazanmışlar.

Tədqiq olunan bitki növləri dekorativliyi, ekoloji davamlılığı, adaptasiya imkanlarının genişliyi, həmçinin tərkibindəki bioloji aktiv maddələrin zənginliyinə görə perspektivli olub, yaşıllaşdırmada və xalq təsərrüfatının müxtəlif sahələrində onların istifadəsi məqsədəuyğundur.